# QARABAĞIN SU VƏ TORPAQ EHTİYATLARININ SƏMƏRƏLİ İSTİFADƏSİ ZAMANI DAMLAMA SU SİSTEMLƏRİNİN TƏTBİQİ

**Aytəkin Hüseynova**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu, ahusenova516@gmail.com*

Qarabağ ərazilərində kənd təsərrüfatı istehsalının bərpasında su ehtiyatlarından istifadənin səmərəliliyinin təmin edilməsi ən mühüm vəzifələrdəndir. Bu məqsədlə ən məqsədəuyğun üsul damlama suvarma sisitemlərinin tətbiqidir.

Torpaq altına çəkilən damla sulama sistemlərinin ən çox tətbiq olunduğu tarlalar yeni qurulan bağçalardır. Müasir sulama sistemlərində sıfır xəta ilə su sisteminin qurulması birinci şərtdir. Bu zaman Qarabağ bölgələrinin torpaqlarının hansı fiziki xüsusiyyətlərə malik olduğu mütləq öyrənilməli, ona uyğun şəkildə damlama su sistemi tətbiq edilməlidir. Bu torpaqlara aid göstəricilər nəzərə alınmaqla, tərəfimizdən damlamanın mənfi və müsbət tərəflərini aydınlaşdırmaq üçün araşdırmalar aparılmışdır.